**SAHİBƏ PAŞAYEVA**
**AMEA Folklor İnstitutunun böyük elmi işçisi**
**psahiba@mail.ru**

# "KOROĞLU" DASTANI VƏ ONU DOĞURAN İCTİMAİ-SİYASİ HADİSƏLƏR, YAŞADAN REAL ŞƏXSİYYƏTLƏR

**Açar sözlər:** "Koroğlu", Cəlalilər hərəkatı, dastan, əfsanə, tarix və reallıq
**Ключевые слова:** «Короглу», движение Джалалидов, эпос, легенда, история и реальность
**Key words:** "Koroglu", Celali movement, saga, legend, history and reality

Hər bir tarixi mərhələ mövcud ictimai-siyasi vəziyyəti yaradır. Baş verən hadisələr ölkənin, dövlətin, xalqın siyasi, ictimai və iqtisadi həyatına öz təsirini göstərir. Həmin şərait hər xalqa məxsus olan və onun dünyagörüşünü, ictmai dünyagörüşünü yaşadan, arzu və istəklərini müdafiə edən qəhrəmanları doğurur. Ürəklərini məşələ döndərərək həyatlarını simurq quşu kimi yandıran igidləri xalq əfsanələşdirir və özünün yaddaşına köçürür.

Məşhur "Kitabi-Dədə Qorqud" dastanından sonra Azərbaycan xalqı dünyaca məşhur növbəti qəhrəmanlıq dastanını-"Koroğlu"nu da belə yaratmışdır. Koroğlunun tarixi qəhrəmanlığı yazıya köçürülməmişdən çox-çox əvvəllər yurdun-vətənin daş səhifələrinə yazılmışdır. Tədqiqatçı alim Sədnik Pirsultanlı rəvayətlərə əsasən Koroğlunun təsvirini belə verirdi: "Koroğlu səhər-səhər iki qayalarla beşdaş oynadığı kimi, döyüşdən əvvəl Kür və Araz çayları boyunca at çapar, çiyninə ağır daş götürüb çayları gah o üzə, gah da bu üzə keçərmiş. O daşların çoxu Araz və Kür sahllərinə yaxın ərazilərdə bu gün də qalmaqdadır. Bu daşların hər biri haqqında xalq gözəl əfsanə və rəvayət yaratmış, qəhrəmanın adını bu abidələrdə əbədiləşdirmişdir. Koroğlunun yarasından axan qana boyanmış qayalar, Qıratın ayağını yaralayan daşlar bu gün "Qanlı daş", "Yaralı daş"lar adları ilə tanınırlar." [5, s.48]

„Koroğlu" dastanı XVI əsrdə yaradılsa da, Avropa dillərinə, o cümlədən rus dilinə tərcümə edildikdən sonra XIX əsrin I yarısında böyük şöhrət qazanmağa başladı. Dastan türk xalqlarının şifahi xalq yaradıcılığında görünsə də, onun əsas süjeti Azərbaycanda yaradılmışdır. Burada Azərbaycanda və Kiçik Asiyada XVI əsrin sonu-XVII əsrin əvvəllərində baş vermiş və tarixə Cəlalilər hərəkatı kimi daxil olmuş xalq hərəkatı və mövcud ictimai-siyasi vəziyyət öz əksini tapmışdı.

Bu hərəkat adını 1518-1519-cu illərdə Tokatda üsyan başçısı olmuş Şeyx Cəlaldan almışdır. Şərqi Anadoluda və Azərbaycanda genişlənən

Cəlalilər hərəkatı mürəkkəb hadisə idi. Bu hərəkatda həmin tarixi dövrün müxtəlif ictimai təbəqələrindən çıxmış şəxslər iştirak edirdilər.

Tarixçilər Cəlalilər hərəkatının başçılarının sırasında 24 tanınmış əyan və sərkərdələrn adlarını çəkirlər ki, onlardan bir çoxu da sonradan “Koroğlu” dastanının qəhrəmanlarına çevrilmşdilər. Mövcud hakim dairələrə qarşı çıxmış belə üsyankar sərkərdələrin sırasında Gürcü Nəbi (gürcü, Osmanlı sarayının keçmiş əyanlarından biri), Abaza-Paşa (və ya Abazinli paşa) (Osmanlı ordusunun keçmiş sərkərdəsi), Kürd Heydər (keçmişdə məşhur sərkərdə), Qara Seyid, Can Fulad, onun oğlu Canoğlu və başqaları var idi. Şərqi Anadoluda və Azərbaycanda Qarayazıcı Dəli Həsənin, Kosa Səfərin, Canpolad oğlu Əli paşanın, Tanrıtanımaz, Göyəbaxan Çılpağın, Qara Səidin, Kəsəkəsin, İncəxanın, Ağacan Pirinin, Manoğlunun, Yolasığmazın, Dəli Nəsibin, Gizir oğlu Mustafa bəyin, Əhməd paşanın, Koroğlunun rəhbərliyi altında Cəlali dəstələri fəaliyyət göstərmişdi.

Xalqı Osmanlı üsul-idarəsinə qarşı qaldıran Qara Yazıçı və onun ölümündən sonra mübarizəsini davam etdirən qardaşı Dəli Həsən də öz adlarını Cəlalilər hərəkatının tarixinə yazdırmışdı. 1602-ci ilin fevralında Şərqi Anadoluda Cəlalilər hərəkatına rəhbərlik etməyə başlayır. Dəli Həsən qardaşının qisasını almaq üçün Sokolluzadə Həsən paşa üzərinə yürüş etmişdir. Tokat yaxınlığında cəlalilərə məğlub olan Həsən Paşa Tokat qalasına sığındı. O, Dəli Həsənin adamları tərəfindən öldürüldü. Dəli Həsən Bosniya bəylərbəyi olarkən xalqla yola getmədiyi üçün sultanın əmri ilə edam edildi.

Dəli Həsənin adı sonradan Koroğlunun yaxın sirdaşlarından biri kimi bədiiləşdirilmiş və “Koroğlu” dastanının ən vacib obrazına çevrilmişdi. Dastanda onların tanışlığı haqqında verilən məlumatı aşağıdakı nümunələrdə belə izləmək olar:

“Günlərin bir günü Koroğlu Qıratı minib Çənlibelin ətəyindəki yola çıxmışdı. Bir də baxdı budu, bir dəstə yaraqlı-yasaqlı atlı gəlir. Amma atların qabağında bir oğlan gəlir ki, dünyalara dəyər. Üzündən, gözündən igidlik yağır. Oğlan Koroğlunu görcək, dəstəsinə hay vurdu. Atlılar o saat Koroğlunu araya aldılar. Koroğlu dayandı. Gözlədi ki, görsün işin axırı nə olacaq.„ [3, s. 59]

“ Koroğlu onu tanıdı. Bildi ki, atasının dediyi Dəli Həsəndi. Bir də diqqətlə atına, özünə baxdı. Gördü yox, Dəli Həsən doğrudan da igid oğlandı. Koroğlu atası ölən gündən bəri onu axtarırdı. Onunla dostlaşmaq, əlbir olmaq fıkrində idi. Ancaq bilirdi ki, bu iş elə-belə baş tutmayacaq. Dava-dalaşsız məsələ düzəlməyəcək. Fikir onu götürdü ki, indi nə təhər eləsin.„ [3, s.59]

“ Dəli Həsənin dəstəsi Koroğluya hücum elədi. Koroğlu atı cövlana gətirib, qızmış şir kimi onların üstünə cumdu.„ [3, s.62]

“Dəli Həsən dedi:

- Mən əhd eləmişdim ki, hər kim məni bassa, onunla dost, qardaş olam. Ölənə qədər onun yanında qalam. İndi sən məni basdın, ancaq öldürərsən, əhdimə çata bilmərəm.

Dəli Həsənin bu sözü Koroğlunu sevindirdi. Ayağa qalxdı, Dəli Həsənin qolundan yapışıb qaldırdı, əlini üç dəfə onun kürəyinə vurdu. Dəli Həsən onun qıhncının altından keçdi, ölənəcən ona qardaş olub, qulluğunda durmağa and içdi. “ [3, s.63]

Baş vermiş hadisələr sonradan folklorlaşdırılmışdır. Real tarixi şəxsiyyət olan Koroğlu ədalətli xalq müdriki, yenilməz qəhrəman, mahir aşıq kimi xalqın sevimlisinə çevrilmişdi. Xalqın qəhrəmanlıq və ədalətli hakim idealları Koroğlu obrazında əksini tapmışdır.

Koroğlu təkə-türkman tayfasından çıxmışdı. Təkə-türkmən tayfasının bir qolu olan təkəlilər Cənubi Azərbaycanda və Kiçik Asiyada köçəri həyat sürürdülər. “Hələ XIV əsrdə anadolu türkləri Zaqafqaziya, Azərbaycan və Kiçik Asiyanın şərqndə yaşayan türk tayfalarını “qızılbaşlar” adlandırırdılar. İran, Azərbaycan və Anadoluda şiəlik Səfəvilərin hakimiyyəti illərində (1502-1736) geniş yayılmışdı. Səfəvi şeyxlərinin XV əsrdə doğma dili azərbaycan dili idi. Bu dövrdə onların əsas dayağı türkmən tayfaları olmuşdur. Şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar və zülqədər tayfaları Səfəvi şeyxlərinin ilk müridlərinə çevrilmişdilər.” [7, s.193] Səfəvilər dövlətinin siyasi həyatında mühüm rol oynayan təkəlilərin bir hissəsi sonralar mərkəzi hakimiyyətə qarşı çıxdığına görə 1596-cı ildə I Şah Abbas tərəfindən məhv edilmiş, qalanları isə Azərbaycanın müxtəlif yerlərinə yayılmışlar. “Mahmud Kaşqarlı, özünün məşhur lüğətnaməsində, Təkənin, oğuzların tanınmış 12 tayfalarından biri olan Salur tayfasına bağlı olduğunu qeyd edir.“ [2, s.43]

Tarixçilər Koroğluya Cəlalilər hərəkatının rəhbərlərindən biri kimi və bu gün aşıqların dilindən düşməyən bir çox qəhrəmanlıq nəğmələrinin müəllifi kimi baxırlar. Məsələn, Koroğlunun ən yaxın silahdaşlarından və dostlarından olan Giziroğlu Mustafa bəy haqqında qoşduğu nəğmə qəhrəmanın bu istedadından xəbər verir:

Analar oğul doğubdu,
Giziroğlu Mustafa bəy.
Bu dünyaya tək gəlibdi
Giziroğlu Mustafa bəy.
Nizəsinin ucu qanlı,
Dəliləri dəmir donlu,

Bir igiddi adlı-sanlı
Giziroğlu Mustafa bəy. [3, s.137]

Giziroğlu Mustafa bəy "Koroğlu" dastanının qəhrəmanlarından biri olmaqla yanaşı, həm də öz dövrünün məşhur şəxsiyyətlərindən olmuşdur. Giziroğlu Mustafa bəy Kars bölgəsinin Kısır kəndində Gizirin ailəsində doğulub. Gizir III Sultan Muradın zamanında həmin kəndin muxtarı vəzifəsini daşımışdır. Atası dünyasını dəyişdikdən sonra Mustafa Kısır və ona yaxın olan ətraf kəndləri idarə etmişdir. Uşaqlıqdan Kars dağlarında boya-başa çatan gənc Mustafa Alapaça atı ilə ovçuluq etmiş, günlərini dağlarda keçirmiş, cəngavər, yenilməz bir qəhrəman kimi yetişmişdir. Doğulduğu bölgənin kəndlərini incitməyə kimsəyə imkan verməmiş, onların əmin-amanlığını qorumuş, elin hörmət və nüfuzunu qazanmışdır. Giziroğlu Mustafa bəylə bağlı arxiv sənədləri 1588-1591-ci illərdə onun fəaliyyətinə aydınlıq gətirir. O, Diyarbəkr, Ərzurum, Sivas, Hələb və Maraşda haqsızlıq və ədalətsizliyə qarşı çıxmışdır. Varlı tacirlərin karvanlarından əldə etdiyi qəniməti kasıb xalqın arasında paylamışdır. Tarixi mənbələrə görə, 1588-ci il 25 may tarixli ilk sənəd Ərəbgir sancaqbəyi Ömərə ünvanlanmış hökmdə sancaqbəyi, alay bəyləri və sipahilər səfərə getdikləri üçün Giziroğlu Mustafa bəyin ətrafına topladığı 250 nəfərlik dəstə ilə Diyarbəkir, Ərzurum, Sivas, Hələb və Maraş yollarından keçən karvanları qarət etdiyi, bölgədə üç-dörd ildir fəaliyyət göstərdiyi üçün onun cəzalandırılması tələb edilirdi… 1589-cu il 27 yanvar tarixli sənəddə Giziroğlu Mustafa bəyin on nəfər silahdaşı ilə ələ keçirildiyi və İstanbula sultanın sarayına göndərilməsi əmr edilir. 1591-ci il 6 dekabr tarixli növbəti sənəddə Giziroğlu Mustafa bəyin həyatına son qoyulduğunun bildirilməsi göstərir ki, o, İstanbula gətirildiyi zaman edam edilmişdir.

Dastan Giziroğlu Mustafa bəy haqqında belə məlumat verir: "Bağdad tərəfindən Giziroğlu Mustafa bəy adında bir iyid var idi. Giziroğlunun başında da qırx atlısı var idi." [3, s.139] Hər iki sərkərdənin dostluğu-qan və can qardaşlığı ümumi düşmənə qarşı mübarizədə müvəffəqiyyət qazanmağa imkan yaradırdı. Dastan həmin dostluğu belə təsvir edir: "Koroğlu sazla dediyini, sözlə də dedi. Sonra üzünü tutdu cəmi dəlilərə, dedi: - Hey dəlilərim! Biz yeddi min yeddi yüz yetmiş yeddi dəli idik. İndi Giziroğlu Mustafa bəyin 777 dəlisi də oldu bizim canbir qardaşımız, - deyib bayaq Misri qılıncı çıxardı qınından. Giziroğlu Mustafa bəy də bir himə bənd imiş kimi Giziri qılıncı çıxardı qınından. Hər ikisi şəhadət barmağını yaralayıb qanın sıxdılar bir-birinə. O tərəfdən də Şamlı bəylə Doli Həsən, Qurd Cəlillə Dəmirçioğlu, Bəbir Alayla Eyvaz xan, Şir Vəliylə Koroğlunun qoç balası Həsən bəy, Sanlı Səmədlə Bəlli Əhməd, Yağıqıranla Tüpdağıdan, Sırt Yusiflə İsabalı, Şərxata Mədədlə Gürcüoğlu, Dəli Çovdarla Dəli Mehdər,

Cinli Mehdiylə Halaypozan, Aşıq Kəngərlə Aşıq Cünun da yaraladılar şəhadət barmaqlarını, qatdılar bir-birinə qanlarını. Əlqərəz, can qar- daşlığı Çənlibeldə oldu qan qardaşlığı.“ [3, s.279]

Koroğlunun sevimli silahdaşlarından biri və oğul əvəzi Qəssaboğlu Eyvazdır. Eyvazın da taleyi yaşadığı zaman içində baş vermiş hadisələrlə sıx bağlı olmuşdur. Füzuli Bayatın tarixçi Həsən bəy Rumluya əsasən verdiyi məlumata görə Azərbaycanda Cəlalilər üsyanın başlanma səbəblərindən biri də Təbrizdə baş vermiş ət qıtlığıdır. Bu üsyanın əsas iştirakçıları qəssablar olmuşlar. Eyvazın atası qəssab Alının “Görünür bunların yerində qoyun bahadı „sözləri bunu təsdiq edir. Füzuli Bayatın araşdırmasından aydın olur ki, “1571-1573 illər Təbriz üsyanının təhrikçilərindən birinin adı Eyvaz olmuşdur… “Koroğlu“ dastanının yaradılmasında Cəlalilər üsyanının liderlərindən biri olan Eyvaz haqqında xalq arasında yayılan rəvayətlərdən, xatirələrdən, macəralardan istifafə edilmişdir.„ [8] Eyvaz da Koroğlu kimi təkə-türkmən tayfasındandır.

Aşıq Cünun dastanda ilk dəfə “Aşıq Cünun“ qolunda görünür. Dastanın Azərbaycan variantında bir karvanın qabağını kəsərək ondan bac stəyən Koroğlu Aşıq Cünunun ilk görüşü belə olur: “Koroğlu baxdı ki, tayların içində bir böyük dəmir sandıq var. Fikirləşdi bu yəqin qızıl-güınüşdı. İşarə elədi sandığı açdılar. Nə çıxsa yaxşıdı. Baxdılar ki, sandığın içində saçı çiynində bir adam uzanıb. Koroğlu qaldı məhəttəl ki, bu nə sirrdi?“ Bəzirganbaşı cavabında bildirir ki, “bu mənim aşığımdı. Adı da Aşıq Cünundu. Bu o qədər ayağı yüngül, xeyir bərəkətli adamdı ki, mənim yanıma gələndən bəri mal-dövlətim həddini aşıb. Sən bizə hücum eliyəndə mən havanı bulut görüb onu sandıqda gizlətdim ki, bəlkə malım, dövlətim getsə də, o qalsın.” [3, s.84] Aşıq Cünunun Koroğlu ilə qalmaq istədiyini və bununla da könülün nə qədər azadlıqsevər, iradənin əyilməz olduğunu göstərdi. “Aşıq Cünun dedi: - Qoç Koroğlu, gözüm, könlüm səni tutub. Ömrümün axırınacan sənə qulluq edəcəm. Aşıq Cünun o gündən Koroğlunun yanında qaldı. Ömrünün lap axır gününəcən onun aşığı oldu. Deyirlər ki, Aşıq Cünun həmişə şəhərləri, kəndləri, obaları, oymaqları gəzib dolanardı, harda bir iyid, nəcib, ana südü əmmiş oğlan görsə gəlib Koroğluya xəbər verərdi. Koroğlu da onları öz dostəsinə gətirdərdi.“ [3, s.84]

Aşıq Cünun döyüş meydanlarında Koroğlu ilə birlikdə olmuş, Koroğlu Misri qılıncı, Aşıq Cünun isə sazı ilə insanları ruhlandırmışdır. ““Koroğlu“ eposundakı Aşıq Cünun obrazının mahiyyət və məzmununda tamamilə başqa bir cəhət də var. Bu isə aşıqlıq sənətinin ülviliyi, saza-sözə münasibət, halal və haramın bir-birindən ayrılması kimi məsələlərlə bağlıdır.“ [1, s.34]

Türk mənbələrinə görə Aşıq Cünun XVII əsrin əvvəllərində Ərzurumda yaşayan bir ozandır və Cəfər paşanın aşığıdır və “Ərzurumlu aşıq“ olaraq bildirilir. Zaman keçdikcə onun kimliyi yaddan çıxmış,

Koroğlunun baş aşığı kimi söz-söhbətləri, şeirləri ilə tarixə qovuşmuşdur. Qarslı Murad Çobanoğlunun söylədiyi bir „Aşıq Cünun“ dastanı da vardır. Lakin bu dastan „“Koroğlu“ dastanının bütün variantlarında Aşıq Cününla bağlı qollarda öz əksini tapmışdır.

“Koroğlu“ dastanında Koroğlunun yaxın silahdaşlarından və onunla çiyin-çiynə vuruşan dəlilərindən biri İsabalıdır. Dastanın bəzi variantlarında o, Əfqanıstan türklərindən biridirsə, bəzi variantına görə Misirdən gəlmişdir.

“Koroğlu“ dastanında iştirak edən Dəmirçioğlu Həsən obrazı onu bir daha sübut edir ki, sənətkarlar da Cəlalilər hərəkatının aparıcı qüvvələrindən biri olmuşlar. “Dəmirçioğlu Həsən elə bir gücə malikdir ki, Koroğlu onu kürzlə vuranda cavabında qayıdıb deyir: “Mənimlə bu zarafatlardan eləmə!“ lakin həmin igid pəhləvan, Koroğlunun qüdrəti və səsindəki güc haqqında deyir: “Mən Koroğlunun qılıncından, sipərindən və kürzündən qorxmuram. Deyirlər ki, o döyüş vaxtı bir nərə çəkir. Mən yalnız onun nərəsindən qorxuram. Elə həmin vaxt Koroğlu dəhşətli bir nərə çəkdi. Dəmirçioğlu isə bunu görən kimi bayıldı„. [3, s.108] Mehtər Yaqub, Başmaqçı Əhməd, Xoca Əziz əhalinin müxtəlif təbəqələrinin üsyanda iştirakından xəbər verir. Koroğlunun silahdaşlarından biri olan Kosa Səfər Qəhrəman Maraşdandır. O, dörd yüz atlının başçısı olub və 1598-ci ildə üsyan edibdir. Bu üsyan tarixi bir hadisə ilə bağlı ola bilər. Belə ki, 1598-ci ildə paytaxtın İsfahana köçürülməsi, narazılıqların artmasına gətirib çıxardı. Şah Abbas elə fikirləşirdi ki, məskunlaşmış qeyri-türk əhalinin himayəsinə arxalanaraq, Qızılbaş zadəganların gücünü zəiflətməklə kəndlilərin həyat səviyyəsinin yüksəlməsinə və mənasız müharibələr nəticəsində zəifləmiş İranın xəstə iqtisadiyyatının yenidən dirçəlməsinə yardım edəcəkdir. O, həmçinin Osmanlı ordusuna qarşı hərbi üstünlük qazanmaq üçün, hələ o vaxtlara qədər arxalandığı feodal və köçəri tayfalardan ibarət ordu əvəzinə, daimi bir ordunun təşkil olunmasını nəzərdə tuturdu.

““Koroğlu„ dastanında Koroğluya düşmən olan paşa və xanların düşmənçiliyi tarixi hadisələrə tam uyğun gəlir. Məsələn, “Düratın itməyi“ qolunda təsvir olunan Qara xan özünü Şah Abbasın qohumu kimi hiss edir, Koroğluya düşmən münasibəti bəsləyir, Koroğlunun dəlilərinin Ələmqulu xanın qoşunu ilə vuruşub qalib gəlməsi Şah Abbasın cəlalilərə birinci məğlubiyyətini göstərir. Məhz bu döyüşdən sonra Əmirgünə xanın proobrazı sayılan Ələmqulu xan isə Koroğlu ilə qohumluğu özünə şərəf bilir. Bu hadisələr “Qulun qaçması“ qolunda əks olunur. Bu qohumluqdan sonra paşalar Koroğlunu məhv etmək üçün yığılıb məşvərət edirlər. Bundan sonrakı hadisələr “Koroğlu ilə Bolu bəy“ qolunda izlənilir.„ [4, s.75]

Dastanda Bolu bəy kimi tanınan şəxs türk qaynaqlarına görə XVII əsrin əvvəllərində Bolu ətrafında yaşamış zülümkar Süleyman bəydir. Koroğlu da məhz

həmin ərazidə yaşamış və sonradan şöhrəti bütün Anadoluya yayılmışdır. Bolulu Süleyman bəy Koroğlunun atasının gözlərinə mil çəkərək cəzalandırmışdır.

Koroğluya qarşı çıxan, onunla mübarzə aparan tiplərdən biri də Ərəb Reyhandır. Türk qaynaqlarına görə "Ərəb Reyhan və onun özünə oxşayan qardaşı Ərəbstandan gələrək Koroğlu ilə savaşırlar." [9] Onlar çox güclü, əlbəyaxa döyüş üsullarını yaxşı bilən, atçapıb-qılınc oynadan pəhlvanlardır.

Cəlalilər hərəkatında şəxsi mənafelər ictimai mənafeyi üstələsə də, "Koroğlu" dastanında tərənnüm olunan Koroğlu hərəkatı milli mənafeyi əks etdirir.

Beləliklə, "Koroğlu" dastanı, mifoloji baxışları və ilkin düşüncə və təfəkkür izlərini özündə saxlasa da, əslində daha çox, mövcud həqiqətlərdən söhbət açır. "Göründüyü kimi, "Koroğlu"nun epos kimi formalaşdığı dövrün ictimai-siyasi və tarixi mənzərəsinə bu ötəri baxış təsdiq edir ki, onun yaranması, poetik baxımdan ətə-qana dolmasında həyatda cərəyan edən hadisələr zəmin rolunu oynamış, bu isə az da olsa öz iz və əlamətlərini qəhrəmanlıq dastanında bu və ya digər dərəcədə qoruya bilmişdir." [2, s.57]

"Koroğlu" dastanı Orta Asiya Türk Dastan ənənəsində bitkinləşmiş və epos səviyyəsinə yüksəlmiş bir tarixi-bədii sənət nümunəsi, „Manas" dastanı qədər qüvvətli bir əsərdir.

Bir qəhrəmanlıq dastanı kimi „Koroğlu" özündən sonra yaranmış qəhrəmanlıq dastanlarının yaranmasına təsir etmişdir. "…Qəhrəmanlıq səhnələrinin təsvirin- dəki mərdlik, igidlik, sədaqət, mübarizlik, insanpərvərlik, etibar, dostluq kimi insani keyfiyyətlərin tərənnümündəki oxşarlıqlar nəzərdə tutulur. Türk xarakterini səciyyələndirən bütün bu keyfiyyətlər XIX və XX yüzilliklərdə başlıca olaraq Azərbaycanda qaçaqçılıq hərəkatının genişlənməsi ilə bağlı yaranmış dastanlarımıza "Koroğlu" eposundan keçmişdir." [6, s.19]

"Qaçaq Kərəm", "Qara Tanrıverdi" "Qandal Nağı", "Qaçaq Nəbi", "Qaçaq Süleyman", "Hacı Tağı", "Qara Söyün", "Pəhlivan İsrafil", "Səttarxan" və s. dastanlarımızdakı ayrı-ayrı səhnələrin bədii təsvirindəki bənzərlik və yaxınlıq bunu bir daha sübut edir.

Dastan mövcud tarixi-ictimai şəraitdə xalqımızın döyüş mədəniyyətinə də aydınlıq gətirir. "Koroğlu" dastanında Koroğlu və dəlilərinin döyüş meydanlarında manevr etmək bacarığı, yürütdükləri düzgün taktiki və strateji siyasət, ustalıqla aparılan təkbətək hərbi döyüşlər, təkbətək döyüşün Şərq növləri, gündəlik təlim məşqləri Azərbaycanda hərb sənətinin inkişaf yolundan xəbər verir. Tarixi ictimai-siyasi vəziyyət, xalqı istismardan xilas etmək istəyi Koroğlunu və onun silahdaşlarını daim hazırlıqlı olmağa, öz hərbi bilik və bacarıqlarını təkmilləşdirməyə məcbur edirdi.

## Ədəbiyyat

1. Əliyev K. "Koroğlu" eposunun poetkası //Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bur.XXIX. Bakı, Nurlan, 2009, s.15-56.
2. Həqqi B. "Koroğlu" - tarixi-mifoloji gerçəklik. Bakı, Nurlan, 2003, 316 s.
3. Koroğlu: Dastan. Bakı: Lider nəşriyyat, 2005, 552 s.
4. Namazova F. Cəlalilər hərəkatı və "Koroğlu" dastanı // AMEA Folklor İnstitutu və AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu.- "Folklor və tariximiz" mövzusunda elmi konfransının materialları.- Bakı, Elm və təhsil, 2012, s.71-78.
5. Pirsultanlı S.P. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar. I kitab. Gəncə, Pirsultan, 2002, 203 s.
6. Sadıq İ. Azərbaycan "Koroğlu" eposu (I kitab). Bakı, Elm və təhsil, 2015, 248 s.
7. Короглы Х.Г. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана. М.: Наука, 1983, 334 с.
8. Köroğlu Destanında Kasapoğlu-Acarindex-www.acarindex.com
9. Köroğlu Destanının Arap Reyhan Kolu Üzerine Bir İnceleme [A Study ...-www.academia.edu

**Сахиба Пашаева**

## Эпос «Кероглу»: социально-политические события, реальные личности

## Резюме

Эпос «Кероглу» является несравненным памятником устного народного творчества. Он отображает идеи идеального общества, идеального героя, воображения, желания и мечты людей, простого народа. Он был создан на общественно-политической основе. Несмотря на то, что герои эпоса в последствии стали легендарными персонажами, многие из них были реальными историческими личностями, которые остались в истории своими добрыми и плохими поступками. Эпос также проясняет боевое исскуство Азербайджанского народа в существующих исторических и социальных условиях.

Способность маневрировать Кероглу и его соратников на поле битве, правильная тактическая и стратегическая политика, умелые военные сражения, восточные типы сражений и ежедневные учения, отраженные в эпосе, показывают путь развития боевых искусств в

Азербайджане. Историческая общественно-политическая ситуация и стремление спасти народ заставили Кероглу и его соратников постоянно готовиться к совершенствованию своих военных знаний и навыков.

**Sahiba Pashayeva**

**Epos "Koroglu": socio-political events, real persons**

**Summary**

The epos “Koroglu”, being a unique art monument, reflects desires and dreams about the symbol of justice, imaginations about ideal society, ideal hero of the simple hardworking people. It was created over the social political circumstances. Though the heroes taking part in the epos remained legendary, many of them were real men who were remembered for their good or bad deeds in the history. The epos also clears up fighting art of the Azerbaijani people in the existing historical and social conditions.

Ability to maneuver Koroglu and his colleagues in the field to fight, the correct tactical and strategic policy, skillful military battles, east types of battles and daily exercises reflected in the epos show a way of development of martial arts in Azerbaijan. The historical social and political situation and aspiration to save the people forced Koroglu and his colleagues to prepare for improvement of the military knowledge and skills constantly.

**Rəyçi: Afaq Ramazanova**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**